**UOT 78.03**

**RÖVŞANƏ KƏRİMOVA***

# AZƏRBAYCAN BƏSTƏKARLARININ MUSİQİLİ-SƏHNƏ ƏSƏRLƏRİNDƏ BƏDİİ OBRAZIN TƏCƏSSÜMÜ

*Təqdim olunan məqalədə Azərbaycan bəstəkarlarının musiqili-səhnə əsərlərində bədii obrazın təcəssümü araşdırılmış və əsasən opera janrı üzərində olan nümunələrə nəzər yetirilmişdir. Məqalədə bədii obraz anlayışı haqqında məlumat verilmiş və musiqili-səhnə əsərlərində bədii obrazı səciyyələndirən əsas xüsusiyyətlər işıqlandırılmışdır. Eyni zamanda məqalədə Azərbaycan bəstəkarlarının vətənpərvərlik, lirik və satirik mövzulu operalarında bədii obrazın təcəssümü xüsusiyyətləri araşdırılmış və müəyyən opera əsərləri əsasında irəli sürülən fikirlər əsaslandırılmışdır. Məqalədə bədii obrazın təcəssümündə musiqi dilində milli elementlərin təşkil etməsi üstünlük xüsusilə vurğulanmışdır.*

**Açar sözlər**: *opera, bədii obraz, musiqili-səhnə əsəri, vətənpərvərlik, lirika, satirik mövzu*

Bədii obraz incəsənətin mühüm kateqoriyalarından biri olub, hər hansı bir yaradıcılıq sahəsinin mənimsəmə üsulu kimi xüsusilə əhəmiyyətlidir. Hər hansı bir janr növündə reallığın obyektiv əksi, bəstəkar tərəfindən subyektiv şərhi və qiymətləndirilməsi məhz bədii obrazın təcəssümü ilə bağlıdır. Musiqili-səhnə əsərlərində bədii obrazın ifadəsi canlı təfəkkürü və mücərrəd düşünməyi musiqinin dili ilə ifadə edir. Bədii obrazın ifadəsi musiqi səhnə əsərlərində yalnız musiqinin gücü ilə deyil, eyni zamanda müəyyən səhnə funksiyalarının yerinə yetirilməsində də özünü büruzə verir. Akustik səs keyfiyyətləri (səs, yüksəklik dinamikası, tembr və s.) səhnə tərtibatı ilə birləşərək əsərin bədii obrazının təcəssüm etdirilməsində mühüm rol oynayır. Musiqi əsərlərində bədii obraz teatral keyfiyyətlərin üstünlüyünü saxlamaqla, süjet və hadisələrin assosiasiyasına musiqili məna gətirmişdir. Musiqili-səhnə əsərlərində bədii obraz mühüm əhəmiyyət kəsb edir. Hadisələrin inkişafı məhz bədii obrazın üzərində qurularaq, baş verənlər onun ətrafında cərəyan edir. Doğrudur, müxtəlif dövrlərdə bədii obraza fərqli tərəflərdən yanaşma üsullari mövcuddur. Klassisizm dövründə tematizmin xarakteri və onun inkişafında kontrastlıq daha çox əhəmiyyət kəsb edirdi və səhnə hadisələrini zənginləşdirirdi. Romantizm dövründə isə ətraf aləmlə qarşılaşma bədii obraza insan hisslərinin həyəcanlılığını, onun emosional təbiətinin açılmasını bəxş edirdi. Müasir dövrdə bədii obrazın açılması artıq müxtəlif təmayüllərin və istiqamətlərin təsiri nəticəsində fərqli şəkildə özünü büruzə verir. Müasir dövr səhnə əsərlərində bədii obraz bir növ şəxsiyyət problemini ön plana çəkir. Bədii obrazın psixoloji tərəfləri daha çox qabardılır: şəxsiyyət öz unikallığı ilə, təkrarolunmazlığı ilə ifadə olunur, realistik tərəfləri daha çox qabardılır. Realistik bədii obraz sanki gerçəkliyin ümumbəşəri bir bənzərinə qayıdır, lakin bu zaman ziddiyyətli və dinamik, şəxsi və sosial tərəflərdə ön planda göstərilir. Bədii obrazın musiqidə ifadəsi ənənə ilə əlaqəli olan yeniliklə əlaqələndirilir.

Musiqili səhnə əsərlərində bədii obraz dedikdə, haqqında danışılan bu və ya başqa hadisə ilə əlaqədar olan müəyyən şəxslər nəzərdə canlanır.

Bədii obrazlar aləmi hər bir əsərə uyğun şəkildə fərdiliyi ilə seçilir. Bu yanaşma bəstəkarın yaradıcılıq istiqaməti, məktəbi, dövrü, əsərdə ifadə etmək istədiyi ideyası ilə sıx bağlıdır. Hər bir bəstəkarın əsərin bədii obrazına özünəməxsus yanaşma metodları, araşdırma meyarları mövcuddur. Azərbaycan musiqisinin inkişafı kontekstində isə bu meyarlar inkişaf

qanunauyğunluqlarına uyğun olaraq milli məktəbin xüsusiyyətləri nəzərə alınmaqla dəyişilir və inkişaf edir. Bu isə öz növbəsində əsərə dramaturji baxımdan yanaşmada daim yeniləşən yaradıcı münasibət tələb edir. Əsərin əsas ideyasının açılması prosesində bədii obrazın açılması mühüm əhəmiyyət kəsb edir. Belə ki, məhz bədii obrazın yaratdığı xüsusiyyətlər əsərin dramaturji inkişafını qabarıq ifadə edir, bu və ya digər obrazların xarakterini müəyyən edir. Əslində musiqili –səhnə əsərlərində baş verən hadisələrin inkişafı məhz bədii obrazın üzərində qurulur. Baş verən hadisələrin inkişafı bədii obrazın ifadə olunması ilə bağlıdır. Bəstəkar əsəri yaradarkən ilk düşündüyü əsərin hansı bədii obraz üzərində qurulması fikridir. Bədii obrazın ifadəsi əsərin əsas obraz sisteminin əsasıdır, yəni əsərin əsas obraz məzmununu və əsas ifadə vasitələrini özündə birləşdirir. Geniş şəkildə yanaşsaq, bədii obraz tarixən formalaşmış musiqili nəzəri anlayışdır. Səhnə hadisələrinin əsas inkişafetdirici vasitəsidir.

Əslində, musiqili səhnə əsərində bədii obrazın xarakteri bəstəkar təxəyyülünün nəticəsi kimi meydana çıxaraq, özünəməxsus təkrarolunmaz cəhətləri ilə xarakteri ifadə edir. Əsərdə bəstəkar bədii obraz vasitəsilə özünün həyata baxışını, əqidəsini işləyib daha da təkmilləşdirir.

Bədii obrazlılıq fərqli şəkildə təzahür edə bilər. Musiqili-səhnə əsərinin xarakterindən asılı olaraq, bədii obraz özündə əsərin əsas ideyası ilə bağlı olan cəhətləri ifadə edə bilər. Bu xüsusiyyət əsərin janr yönümü, eləcə də, irəli sürülən əsas ideyanın ifadəsi ilə bağlıdır. Dövrün xüsusiyyətlərində, cəmiyyətin tələbatından asılı olaraq, bədii obraz xarakterini dəyişə bilər. Amma bu bədii obrazın əsərdə ifadə olunan quruluşu ilə deyil, ifadə məzmunu ilə bağlıdır. Bədii obrazın ifadəsi həm ədəbi əsərlərdə, həm də musiqili əsərlərdə demək olar ki, eyni tərzdə təzahür edir. Fərqlilik əsərin janr yönümü ilə bağlı olar. Yəni, bəstəkarın ifadə elədiyi bədii obrazlılıq əsərin əsas ideyasının ifadəsidir və bu zaman əsərin xarakteri də bədii obrazda göstərilir.

Bədii obraz əsərin məzmunundan asılı olaraq fərqli şəkildə ola bilər: lirik, vətənpərvər, qəhrəmani, satirik, qrotesk və digər xüsusiyyətlər bədii obrazda ifadə oluna bilər. Bədii obrazı ümumilikdə səhnə hadisələrində müşahidə etmək mümkün olmasa da, istiqamətverici və təkanverici qüvvə kimi hadisələrin inkişafında müşahidə olunur. Əsərin ideya məzmununu dolğunlaşdırır, mənəvi keyfiyyətləri ön plana çəkir. Bədii obraz əsərdə olan hadisələrin ümumiləşdirici keyfiyyətlərini özündə daşıyır.

Azərbaycan bəstəkarlarının musiqili səhnə əsərlərində bədii obrazın təcəssümü özünəməxsus şəkildə həllini tapmışdır. Bunu daha aydın izah etmək üçün Azərbaycan bəstəkarlarının musiqili-səhnə əsərlərindən müəyyən nümunələrə diqqət edək. Əlbəttə, bədii obrazın ifadəsi geniş əhəmiyyətli yanaşma tələb etdiyindən biz məqalənin imkanlarını nəzərə alaraq, müəyyən mülahizələr irəli sürməyə çalışmışıq və əsas diqqətimizi opera janrına yönəltmişik.

Azərbaycan musiqisində vətənpərvərlik mövzusunda yazılmış musiqili-səhnə əsərləri əsasən opera janrını əhatə edir. Bu mövzuda yazılmış operalarda bədii obrazın təcəssümü vətənpərvərlik mövzusunu, xalq həyatını, baş qəhrəmanın xalqla sarsılmaz birliyini ifadə edir. Ü.Hacıbəylinin "Koroğlu" operasında başlayaraq, F.Əlizadənin "İntizar" operasına qədər olan böyük dövrü əhatə edən bu operalarda bədii obrazın təcəssümü fərqli bəstəkar yanaşmasında ifadə olunsa da, onların hamısını ümumi bir cəhət birləşdirir: mövzu yaxınlığı, dövrün aktual məsələlərinə cavab verən ideya ümumiliyi, milli xarakterin ifadə olunması cəhətləri və digər xüsusiyyətlər. Qərbi Avropa və rus bəstəkarlarının ənənələrindən bəhrələnən Azərbaycan bəstəkarlarının vətənpərvərlik mövzulu operalarında bədii obraz hərtərəfli şəkildə əsər boyu açılır. Hadisələrin inkişafı bədii obrazın zəngin keyfiyyətləri fonunda açılaraq, bəstəkarın üslubu, özünəməxsus dəst-xəttini təcəssüm etdirir. Bu növ operalarda bədii obraz münaqişəli dramaturgiyanın fonunda verilərək, səhnə hadisələrini zənginləşdirir, hadisələrə öz münasibətini bildirir.Əslində bədii obrazın baş verənlərə münasibətində bəstəkar sanki özünü nəzərdə tuturaq,

əsərə öz münasibəti nöqteyi-nəzərindən yanaşır. Məlumdur ki, vətənpərvərlik mövzulu operalar tarixi dəyişikliklərin ifadəsidir və xalq mənəviyyatının göstəricisidir. Bu baxımdan irəli gələrək, bədii obrazın təcəssümü münaqişə və toqquşma əsasında qurularaq, əsərə dramatik xüsusiyyətlər gətirilməsinə səbəb olur, dramaturgiyada dinamikliyi gücləndirir. Bu mövzulu operalar tarixi varislik ənənələrini daşıdığı üçün bədii obraz cəhətləri də ənənələrə əsaslanan millilik səviyyəsində özünü büruzə verir. Geniş miqyaslı və epik başlanğıcın üstün olduğu bu operalarda bədii obraz əsas ideyanın dramaturji xüsusiyyətlərini özündə birləşdirmişdir. Bu növ operalarda bədii obraz əsərin ictimai mövqeyindən, psixologiyasından, əxlaqi görüşündən irəli gəlir, hiss və həyəcanlarında, səhnə inkişafında öz davamını tapır. Müxtəlif səhnə situasiyalarında bədii obrazın xarakteri mürəkkəbləşməyə doğru gedərək, səhnə əsərinin hərəkətverici qüvvəsinə çevrilir. Onu da nəzərə almalıyıq ki, Azərbaycan bəstəkarlarının səhnə əsərləri ilə milli xüsusiyyətlərdən irəli gələrək, özünəməxsus xarakterik cəhətlərə malikdir. Milli xüsusiyyətin verilməsi Qərbi Avropa və rus bəstəkarlarının operalarından fərqli olan bədii obrazın formalaşmasına səbəb olur. Xüsusilə səhnə hadisələrinin inkişafı nəticəsində bədii obrazın xarakteri aydın şəkildə nəzərə çarpmağa başlayır. Belə ki, bədii obraz səhnə hadisələrinin inkişaf prosesini və milli xarakteri özündə əks etdirir, epik dramaturji xüsusiyyətlərin daha qabarıq verilməsində bilavasitə iştirak edir. Ümumiyyətlə, vətənpərvərlik mövzulu musiqili səhnə əsərlərində bədii obrazın parlaq təzahürü daha qabarıq yer tutur. Bədii obraz yalnız əsərin məzmununun, ideyasının ifadəçisi kimi deyil, eyni zamanda milli xarakterin göstəricisi kimi də diqqəti cəlb edir. Digər tərəfdən bu mövzu dövrə uyğun şəkildə öz simasını fərqli şəkildə göstərə bilər. Cəmiyyətdə baş verən hadisələr, sosial dəyişikliklərin baş verməsi bilavasitə vətənpərvərlik mövzulu əsərlərin bədii xarakterinə təsir edir.

Vətənpərvərlik mövzulu operalarda eyni ideya saxlanılsa da, bədii obraz baxımından müxtəliflik nəzərə çarpır. Dahi bəstəkar Ü.Hacıbəylinin xalq qəhrəmanlıq dastanı əsasında yazılan "Koroğlu" operasında xalq obrazı milli qəhrəmanlıq ruhunun musiqidə təcəssümüdür. C.Hacıyev və Q.Qarayevin "Vətən" operasında isə bədii obraz xalqın yadelli işğalçılara olan münasibəti üzərində qurulmuşdur. F.Əlizadənin "İntizar" operası isə müasir dövrümüzdə baş verən hadisələrin musiqidə parlaq təcəssümüdür. Ümumiyyətlə, "Koroğlu" operasından gələn bədii obrazlılıq vətənpərvərlik-qəhrəmani ruhda yazılmış bütün əsərlərin əsasını təşkil edir. Bu növlü operalarda əsas qəhrəman xalqdır və bədii obrazın təcəssümü xalqın üzərində qurulmuşdur. Bu operada xalqın obrazının açılışı da mərhələlər üzrə baş verir. Əvvəldə məzlum, sonradan üsyankar, sonda isə qalib tərzdə təcəssüm olunan xalqın bədii obrazı inkişafda verilir. "Koroğlu" operasında Koroğlu obrazı bədii baxımdan xalq-kütləvi səhnələrinin əhatəsində açılır. Bu da bilavasitə obrazlar arasında bağlılığı nümayiş etdirir. Musiqi dili baxımdan yanaşdıqda vətənpərvərlik mövzulu operalarda bədii obrazların açılışında möhtəşəmlik duyulur. Bu növlü operalarda xalq obrazı təzadlı emosiyalarla, mübarizə və qələbələrdə açılır və digər obrazların da açılmasına təkan verən əsas bədii obraza çevrilir. XXI əsrdə müasir mövzuda yazılan ilk opera olan "İntizar"da bədii obrazların zirvəsində yenə də xalq obrazı dayanır- bütün çətinliklərə sinə gərən və gələcəyə ümidlə və inamla yanaşan xalq obrazı. Bu operada ailə başçısının, ananın, övladların hissləri, vətənə sevgisi xalq obrazının ətrafında cərəyan edir və xalq operanın əsas bədii cəhətlərinin ifadəçisidir. Vətənpərvərlik mövzulu operalarda xalq obrazı eyni zamanda kütlənin təcəssümüdür və buna görə bu səpkili operalarda xalq obrazının açılışında xorlara üstünlük verilir, digər obrazlar isə kütlənin ətrafında cəmləşərək bədii baxımdan açılır. Vətənpərvərlik mövzulu operalarda operanın məzmunundan, ideyasından irəli gələrək, xalq obrazı əsər boyu aktivliyini qoruyaraq saxlayır. Bu baxımdan yanaşdıqda, "Koroğlu" və "Vətən" operalarında bədii obrazların təcəssümündə epik süjetli məzmunun xüsusiyyətləri əks olunur. C.Cahangirovun "Azad" operasında isə bədii obrazın təcəssümündə əsərin məzmunundan irəli gələrək, lirik

başlanğıc da əsas rol oynayır. "İntizar" operasında isə faciəvi məzmun bilavasitə əsərin daxilinə nüfuz edərək, bədii obrazlılıqda dramatikliyi gücləndirir. Eyni zamanda epikliklə yanaşı, lirik mövzuların istifadə olunması vətənpərvərlik mövzulu operalarda parlaq bədii obrazlılıq yaradır. "Koroğlu"da Nigar, "Azad"da Səriyyə, "Vətən"də Dilbər, "İntizar"da Mələk kimi lirik obrazların istifadə olunması vətənpərlik mövzulu əsərlərdə bədii obrazların lirik tərəflərini işıqlandırır.

Musiqili-səhnə əsərləri içərisində lirik xarakteri ifadə edən bədii obrazın təcəssümü də xüsusilə diqqəti cəlb edir. Azərbaycan bəstəkarlarının musiqili-səhnə əsərlərində lirik xarakterli bədii obrazın təcəssümü əsas ifadə vasitələrindəndir. Bu tipli obrazlılıq mövzu müxtəlifliyini özündə birləşdirən bütün əsərlərdə rast gəlinir.

Bədii obrazın fərqli şəkildə ifadə olunduğu operalardan biri də M.Maqomayevin "Nərgiz" operasıdır. Onu da qeyd edək ki, "Nərgiz" operası əsas qəhrəmanın xalq olduğu ilk operadır. Bu opera eyni zamanda əsas qəhrəmanın qadın olduğu səhnə əsərlərinin başlanğıcını qoydu və bu əsər gələcəkdə F.Əmirovun "Sevil", Ş.Axundovanın "Gəlin qayası" əsərlərinin başlanğıcını qoydu. Lirik-dramatik xarakterli səhnə əsərlərində bədii obrazın təcəssümü daha çox portret formasının yaradılması üzərində qurulur. Bu növlü əsərlərdə bədii obrazın açılışı əsas qəhrəmanın səciyyəsi ilə bağlıdır. Məsələn, F.Əmirovun "Sevil" operasında bədii obraz kimi Sevil obrazı verilmişdir və hadisələr məhz bu obrazın ətrafında cərəyan edir. Operada baş verən hadisələr, dramaturji inkişaf xətti məhz bu obrazın bədii inkişafı ilə bağlıdır. Burada opera janrını hərtərəfli tədqiq edən tanınmış tədqiqatçı B.Yarustovskinin belə bir fikri yada düşür: "Həyatdan və xalqdan tədric olunmuş qəhrəman mövcud deyildir. Qəhrəmanların şəxsi dramı xalq səhnələri vasitəsilə gücləndirilərək, həyatın "nəbzinin" fasiləsiz hissiyyatı ilə inkişaf etdirilir". [12, s.65]

F.Əmirovun "Sevil" operasında bədii obrazın canlandırılması bir çox cəhətlərilə fərqlənir. Əvvəla, tarixi zərurətdən yaranan "Sevil" operası azərbaycan qadınının təkamülünü ifadə edən ən parlaq əsərdir. F.Əmirovu C.Cabbarlının dramına cəlb edən həm də buradakı zəngin obrazlar silsiləsidir. Zəngin obrazlar qalereyasının olması bu operanın bədii obrazlılığını daha qabarıq ifadə edir. Sevil və onun dostlarına qarşı duran Balaş və onun mühiti operada obrazlı-tematik ziddiyyəti artırır. Musiqişünas S.Təhmirazqızı yazır: "Operada dramaturji konfliktin əsasını mütərəqqi obrazlar qrupu (Sevil və onun dostları) və ölüb gedən dünya (Balaş və onun mühiti) ilə təşkil olunan iki zidd ictimai qüvvənin bir-birinə qarşı qoyulması təşkil edir. İştirakçıların ictimai və psixoloji mahiyyətlərinin bir-birinə zidd olması operada obrazlı-tematik və kompozisiya-struktur ziddiyyətini şərtləndirir". [10, s. 79].

Lirik növlü əsərlərdə diqqəti cəlb edən digər bir cəhət bədii obrazın mürəkkəbləşmiş xarakterinin açılması fonunda lirik qəhrəmanların konkret ifadəsidir. Məsələn, F.Əmirovun "Sevil" operasında Balaş obrazı ziddiyyətli xarakterə malik olsa da, ona qarşı qoyulan Sevil konkretliyə malikdir. Sevilin bədii obrazı yetkindir, hərtərəflidir, məqsədyönlüdür, operada onun inkişaf xətti bədii obrazını tamamlayır. Bədii obraza fərqli yanaşmanı Ş.Axundovanın "Gəlin qayası" operasında da müşahidə edə bilərik. Xan obrazı ilə əsas qəhrəman Gülbahar obrazının bədii xarakterləri tamamilə fərqlilik təşkil edir. Lirik xarakterli əsərlərdə bədii obrazların qarşılaşmasında ictimai xəttlərin, sosial elementlərin də rolunu qeyd etmək lazımdır.

Satirik mövzulu əsərlərdə isə bədii obrazın verilməsində milli xüsusiyyətlər daha qabarıq nəzərə çarpır. Bu baxımdan musiqili komediyalarda, satirik opera nümunələrində məişət tərzinə yaxınlıq, sadə insan obrazlarının yaradılması bədii obrazın ifadəsinə müəyyən qədər sadəlik gətirir. Milli musiqimizdə Ü.Hacıbəylinin musiqili komediyalarından başlayaraq satirik obrazların ifadəsində xalq yaradıcılığına əsaslanan musiqi dilinin xüsusiyyətləri daha qabarıq ifadə olunur. Ü.Hacıbəylinin üç musiqili komediyası sırasında xüsusilə, "O olmasın, bu olsun"da satira üstünlük təşkil edir. Digər iki musiqili komediyada – "Ər və arvad" və "Arşın mal alan"da yumor, məzhəkə elementləri daha üstündür, hətta "Arşın mal alan" lirik-komik operaya

yaxınlaşır. "O olmasın, bu olsun" musiqili komediyasının obrazları yeniliklə köhnəliyin mübarizəsi tərzində qurulmuşdur. Yeniliyi təmsil edən müsbət obrazlar satirik boyalarla canlandırılan mənfi personajlarla qarşı-qarşıya qoyulur ki, bu da əsərin bədii obrazlılığını zənginləşdirir. Belə növ əsərlərdə bədii obrazın təcəssümü daha çox satira ilə yüklənir və əsas diqqət bədii obraza deyil, əsərdə baş verən hadisələrə yönəlir. Bu baxımdan yanaşdıqda satirik səpkili əsərlərdə bədii obrazın təcəssümü baş verən hadisələrin daxilində saxlanılmış olur. C.Məmmədquluzadənin eyni adlı əsəri əsasında yazılan V.Adıgözəlovun "Ölülər" operasında bədii obrazlar aləmi zənginliyi ilə diqqəti cəlb edir. "Ölülər" operasında xalq obrazı passiv şəkildə verilsə də, bədii baxımdan yanaşdıqda xalq baş verən hadisələrin simasını əks etdirir. Bədii baxımdan yanaşdıqda, xalq obrazı psixoloji baxımdan öz xarakterini açır. Digər obrazların bədii səciyyəsi məhz xalq obrazı ilə münasibətdə açılır. Bu baxımdan İsgəndər və xalq, Şeyx Nəsrullah və xalq qarşılaşması operanın bədii obrazlarının xarakterinin açılması istiqamətində mühüm bir rol oynayır. Satirik əsərdə bədiilik sanki hadisələrin satirik axarında hiss olunmur. F.Əmirovun "Sevil" operasında Əbdüləli bəy və Məmmədəli bəyin satirik obrazları əsərin lirik xarakterli bədii obrazlar aləminə dəyişiklik gətirərək, fərqlilik yaradır. Bədii obrazın satirik mövzulu əsərlərdə maraqlı bir şəkildə ifadəsi M.Quliyevin "Aldanmış ulduzlar" operasında verilmişdir. İctimai-fəlsəfi düşüncələrin qabarıq ifadə olunduğu bu operada satirik mövzu sanki daxildən onu əvəz edən digər mövzu ilə əvəz olunur. Sanki bədii obrazın daxilindən fərqli bir bədii obraz yaranır. Bu xüsusiyyət rus satirik operaları ilə assosiasiya yaradaraq, təqdim olunur. Bədii obrazın daha dərindən əks etdirilməsi onun ədəbi mənbəyi ilə də əlaqədardır. Bu baxımdan M.Quliyevin "Aldanmış ulduzlar" operasında bədii obrazlar baxımından zənginliklə rastlaşmaq mümkündür. Məlumdur ki, bu opera Azərbaycan ədəbiyyatında realist nəsrin banisi, görkəmli dramaturq M.F.Axundzadənin "Aldanmış kəvakib" əsəri əsasında yazılmışdır. Təbiidir ki, əsərin dramaturji süjet xəttindən irəli gələrək, burada bir çox maraqlı obrazlarla qarşılaşmaq mümkündür. Librettoya xalq nağılları, meydan tamaşalarının səciyyəvi obrazlarının daxil edilməsi əsərin bədii obraz aləmini zənginləşdirmişdir. Bu operada bədii obrazların səciyyəsi musiqi dili ilə uyğunluq yaratmışdır. Operanın dramaturji xəttində bəstəkar hər bir obrazın bədii tərəflərini musiqi vasitəsilə özünəməxsus tərzdə açır. Belə ki, Axund obrazı muğamsayağı musiqi ilə səciyyələnir, saray şairinin çıxışları isə aşıq musiqisi üslubundadır, əcnəbi qonağın səciyyəsi komik parodiya şəklində verilir. Bu obrazlar opera boyu eyni səviyyədə bədii baxımdan açılır. Amma bunların əksinə olaraq, əsərin müsbət obrazlarının səciyyəsi daha sərbəst şəkildə açılır. Lirik xətti təmsil edən müsbət qəhrəmanların bədii səciyyəsi isə vokal partiyada xalq mahnıları ilə verilərək, ənənəvi opera ifa üsulu ilə sintez olunur. Xalq yaradıcılığını təmsil edən obrazların səciyyəsində isə xalq musiqisinin meyxana janrının xüsusiyyətləri tətbiq edilir. Satirik mövzulu əsərlər sırasında V.Adıgözəlovun "Ölülər" operasının bədii obraz müxtəlifliyini qeyd etmək olar.

Ümumiyyətlə, məqalənin həcmini nəzərə alaraq, Azərbaycan bəstəkarlarının musiqili-səhnə əsərlərinə müraciət edilərkən, əsasən opera janrı üzərində dayanılmışdır və nəzərdə keçirilən əsərlərdən irəli gələrək, bir sıra maraqlı mülahizələr irəli çıxmışdır:

Azərbaycan bəstəkarlarının musiqili-səhnə əsərlərində bədii obrazın təcəssümü əsərin məzmunundan, ideyasından asılıdır. Yəni, hər hansı bir obrazın bədii baxımdan qabarıq verilməsi əsərin süjet xətti ilə bağlıdır. Belə ki, bədii obrazlılıq qəhrəmani-vətənpərvərlik mövzulu əsərlərdə xalq obrazı ilə, lirik və satirik məzmunlu əsərlərdə isə əsas qəhrəmanların xarakteri ilə bağlıdır. Bədii obrazın təcəssümündə musiqi dilində milli elementlər üstünlük təşkil edir. Belə ki, muğamlardan, milli lad-intonasiya elementlərindən istifadə bədii obrazın təcəssümündə milli xüsusiyyətləri daha da qabardaraq, milli özünəməxsusluğu formalaşdırır.

Beləliklə, Azərbaycan bəstəkarlarının musiqili-səhnə əsərlərində, o cümlədən nəzərdən keçirdiyimiz operalarda bədii obrazın təcəssümü milli xüsusiyyətlərin işıqlandırılması baxımından diqqətəlayiqdir və bədii baxımdan xüsusi əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Abdullazadə G. Fikrət Əmirov-85. // "Musiqi dünyası" jurnalı, 2007, № 1-2, s. 47-50.
2. Əliyeva F. Azərbaycanda bəstəkarlıq ənənəsinin yaranması tarixindən. // "Musiqi dünyası" jurnalı, 2002, № 1-2, s. 9-18.
3. Əliyeva F. Azərbaycanda operanın yaranması: Milli qaynaqlar. // "Mədəni maarif" jurnalı, 2006, № 2, s. 48-50.
4. Əliyeva F. XX əsr Azərbaycan musiqisi: tarix və zamanla üz-üzə. Bakı: Elm, 2007, 314 s.
5. Hacıyev C. Ədəbiyyat nəzəriyyəsi. Bakı: ADN, 1958, 286 s.
6. Hüseynova A. Firəngiz Əlizadənin yaradıcılığının estetik və üslub məcrası. // "Musiqi dünyası" jurnalı, 2007, № 1-2(31), s. 160-162.
7. Qarayev Y. Mirzə Fətəli Axundov. Bakı: İşıq, 1988, 15 s.
8. Məmmədova H. Tarixi-qəhrəmanlıq mövzusu Azərbaycan bəstəkarlarının operalarında. B: 2014, 174 s.
9. Mikayılov Ş. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Maarif, 2000, 194 s.
10. Təhmirazqızı S. Fikrət Əmirov. Bakı: Azpoliqraf, 2012, 370 s.

**Xarici dillərdə**

11. Кафарова, З. Опера «Кѐроглы» Узеира Гаджибекова. Баку: Язычы, 1981.167 с.
12. Ярустовский Б. Драматургия русской оперной классики. М.: Музгиз, 1952, 375 с.

**Saytoqrafiya**

13. Мальцева Е.А. Художественный образ как результат отражения и конструирования реальности. *Обсерватория культуры*. 2020;17(1):16-25. https://doi.org/10.25281/2072-3156-2020-17-1-16-25
14. Комурджи Р.З. Сущность художественного образа в музыкальных произведениях. Тамбов: Грамота, 2017. № 12. Ч. 3. с. 84-87. https://www.gramota.net/materials/3/2017/12-3/19.html


***Azərbaycan Milli Konservatoriyasının tədris metodiki mərkəzinin müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru***
***E-mail: kerimova.rovshana@mail.ru***

**Rovshana Kerimova**

## THE PERSONIFICATION OF THE ARTISTIC IMAGE IN THE MUSICAL AND STAGE WORKS OF AZERBAIJANI COMPOSERS

The article deals with studying the personification of the artistic image in the musical and stage works of Azerbaijani composers, and reviewing the samples, mainly, of the opera genre. The article provides the information on the concept of an artistic image and highlights the main features inherent in an artistic image in musical and stage works. At the same time, the article considers the features of the personification of the artistic image in operas on the theme of patriotism, lyrics and satire, and substantiates the ideas put forward on the basis of certain operatic works. The article especially emphasizes the predominance of national elements of the musical language in the personification of the artistic image.

**Keywords**: *opera, an artistic image, musical and stage work, patriotism, lyrics, satirical theme*

**Ровшана Керимова**

## ВОПЛОЩЕНИЕ ХУДОЖЕСТВЕННОГО ОБРАЗА В МУЗЫКАЛЬНО-СЦЕНИЧЕСКИХ ПРОИЗВЕДЕНИЯХ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ

В представленной статье изучено воплощение художественного образа в музыкально-сценических произведениях азербайджанских композиторов и рассмотрены образцы, главным образом, оперного жанра. В статье представлена информация относительно понятия художественного образа и освещены главные особенности, присущие художественному образу в  музыкально-сценических произведениях. В то же время в статье исследованы особенности воплощения художественного образа в операх на тему патриотизма, лирики и сатирики  и обоснованы  идеи, выдвинутые на основании определенных оперных произведений. В статье особенно подчеркивается преобладание национальных элементов на музыкальном языке в воплощении художественного образа.

**Ключевые слова**: *опера, художественный образ, музыкально-сценическое произведение, патриотизм, лирика, сатирическая тема.*

*(Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir)*

**Daxilolma: İlkin variant 05.01.2021**
**Son variant 24.02.2021**